Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 11
# TARİX

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1. Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının birinci mərhələsində baş *verməmişdir:***

A) Qarababa döyüşünün baş verməsi

B) Qəmərli kəndi yaxınlığında rus qoşunlarının məğlub edilməsi

C) Kürəkçay müqaviləsinin imzalanması

D) Rusiyanın Quba və Lənkəran xanlıqlarını ələ keçirməsi

E) Rusiyanın Qarabağı və Lənkəranın bir hissəsini Qacarlara güzəştə getmək istəməsi

**2. "Kənd cəmiyyətlərinin idarəsi haqqında əsasnamə"nin məhdud cəhətlərindəndir:**

1. Torpaqlar ağalar və bəylərin mülkiyyətində saxlanılırdı
2. Kəndlilərin torpaq satın almasına dövlət heç bir yardım etmirdi
3. Vergilərin ümumi miqdarı dəyişməz qalırdı
4. Azərbaycan feodalları torpaqlarını yalnız ali müsəlman silkinə verə bilərdi

A) 1, 2

B) 2, 3

C) 3, 4

D) 1, 3

E) 2, 4

**3. Hadisə-nəticə əlaqəsini müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| 1) | 1912-ci ildə kəndli islahatının keçirilməsi | Dövlət kəndlilərinin müvəqqəti mükəlləfiyyətdən azad edilməsi |
| 2) | 1866-cı il məhkəmə islahatının keçirilməsi | Cənubi Qafqazda andlı iclasçılar məhkəməsinin yaradılması |
| 3) | "Şəhər özünüidarəsi haqqında" Əsasnamənin tətbiq edilməsi | Azərbaycan əhalisinə ilk dəfə seçmək və seçilmək hüququnun verilməsi |
| 4) | İltizam sisteminin ləğv edilməsi | Bakıda ilk ağ neft zavodunun inşa edilməsi |
| 5) | Bakı Ağ Neft Zavod Sahibləri ittifaqının yaradılması | Neft sənayesinin inhisar mərhələsinə qədəm qoyması |

A) 1, 2

B) 2, 5

C) 1, 4

D) 3, 4

E) 3, 5

**4. 1905-ci ilin noyabrında və 1917-ci ilin martında Bakıda baş vermişdir:**

A) Müsəlmanlara qarşı soyqırım törədilməsi

B) Fəhlə Deputatları Sovetinin fəaliyyətə başlaması

C) Bakı general-qubernatorluğunun yaradılması

D) Qafqaz müsəlmanlarının qurultayının keçirilməsi

E) Yeni siyasi partiyaların yaranması

**5. Göstərilənlər aiddir:**

a. İkinci Dövlət Dumasına deputat seçilmişdi

b. "Şərqi-rus" qəzetinin baş redaktoru idi

A) X.Xasməmmədova

B) Z.Zeynalova

C) M.Şahtaxtinskiyə

D) İ.Ziyadxanlıya

E) Ə.Haqverdiyevə

**6. 1908-ci ildə Təbrizdə silahlı üsyanın başlamasının səbəblərindəndir:**

1. Qacarlar dövlətinin İngiltərə və Rusiya ilə müqavilə imzalaması
2. Müzəffərəddin şahın konstitusiya imzalamaqdan imtina etməsi
3. Məşrutə hərəkatının iştirakçılarının şah tərəfindən həbs olunması
4. Məclisin və Tehrandakı Azərbaycan nümayəndəliyinin binasının dağıdılması

A) 1, 2

B) 3, 4

C) 2, 3

D) 1, 3

E) 2, 4

**7. Uyğunluğu müəyyən edin:**

I. "Türk Ədəmi-mərkəziyyət" partiyası

II. "Müsavat" partiyası

III. "Difai" təşkilatı

a. 1909-cu ildə fəaliyyətini müvəqqəti dayandırmışdı

b. M.Mövsümov və M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yaradılmışdı

c. 1912-ci ildə proqramı çap edilmişdi

d. "Qeyrət" partiyasının siyasi proqramından çıxış edirdi

e. Üzvləri Birinci Dünya müharibəsi illərində "müstəqil Azərbaycan" layihəsini hazırlamışdılar

A) I-b, c; II-e; III-d;

B) I-e; II-d; III-a, b;

C) I-a; II-e; III-b, d;

D) I-a, e; II-b; III-c;

E) I-d; II-c; III-a, e;

**8. Rus və erməni milli şuralarını AXC parlamentinin işində iştiraka məcbur etdi:**

A) Bakıdakı Antanta hərbi komandanlığının parlamentə və hökumətə müsbət münasibəti

B) Paris sülh konfransında Azərbaycanın müstəqilliyinin de-fakto tanınması

C) Zaqafqaziya Seyminin Osmanlı dövləti ilə müharibədə məğlub olması

D) General Denstervilin AXC hakimiyyətini tanıması

E) Milli Ordunun Əsgəran və Lənkəran döyüşlərində uğur qazanması

**9. I Dünya müharibəsindən sonra Fransa və İngiltərənin güclənməsinin qarşısını almaq məqsədi ilə ABŞ:**

A) Almaniyaya qarşı ABŞ-ın "açıq qapılar" siyasətini tətbiq etdi

B) Xarici siyasətdə təcridçilik prinsipindən imtina etdi

C) İngiltərə və Fransanın Sakit okeandakı hərbi üstünlüyünə qarşı çıxdı

D) Almaniya və Osmanlı müstəmləkələrinə mandat sistemi tətbiq etməyi təklif etdi

E) Sülh müqavilələrinin V.Vilsonun 14 maddəsi əsasında imzalanmasını təklif etdi

**10. Məntiqi ardıcıllığı tamamlayın:**

1. I Napoleonun Avropada işğallara başlaması
2. Müqəddəs Roma imperiyası və Prussiyanın məğlub edilməsi
3. .........................................................

A) Fransanın dünyada ən güclü dəniz dövlətinə çevril-məsi

B) Fransaya qarşı “Müqəddəs ittifaq” adlı koalisiyanın yaradılması

C) İngiltərə və Rusiyanın Fransa ilə sülh imzalaması

D) Vestfaliya sülhündən sonra yaranmış status-kvoya son qoyulması

E) Otto fon Bismarkın Fransanı təcridetmə siyasətinin iflasa uğraması

**11. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. San-Stefano sülhünün imzalanması
2. Kraliça Viktoriyanın Hindistan imperatriçası elan edilməsi
3. Ayqun müqaviləsinin imzalanması
4. Yaponiyanın konstitusiyalı monarxiyaya çevrilməsi

A) 2, 4, 1, 3

B) 3, 1, 4, 2

C) 2, 1, 3, 4

D) 1, 2, 4, 3

E) 3, 2, 1, 4

**12. Brest-Litovsk müqaviləsindən fərqli olaraq, Berlin konqresinin qərarlarına əsasən:**

1. Qars, Ərdəhan və Batum Rusiyaya ilhaq edildi
2. Rusiyanın Almaniya və Avstriya-Macarıstanla ziddiyyətləri artdı
3. Osmanlı dövlətinin Avropadakı idarəçiliyinə son qoyuldu
4. Qara dəniz bütün hərbi gəmilərə qapalı elan edildi

A) 1, 2

B) 2, 3

C) 3, 4

D) 1, 3

E) 2, 4

**13. V Mehmet Rəşadın hakimiyyəti dövründə baş *verməmişdir:***

A) Osmanlının Afrikadakı sonuncu mülklərini itirməsi

B) Almaniya dövləti ilə hərbi ittifaq qurulması

C) İtaliya-Osmanlı müharibəsinin baş verməsi

D) Dövlət işlərində “Gənc türklər”in mühüm mövqe tutması

E) Makedoniyada silahlı üsyanın baş verməsi

**14. 1828-ci il Qacarlar və 1842-ci il Çin tarixi üçün oxşar cəhət:**

A) İngiltərə ilə ticarət müqaviləsinin imzalanması

B) Bəzi xarici ölkələrin vətəndaşlarına eksterritoriallıq hüququnun verilməsi

C) Rusiya ilə sülh müqaviləsinin imzalanması

D) İmperator hakimiyyətinə qarşı üsyanların baş verməsi

E) Konstitusiyalı monarxiyaya çevrilməsi

**15. Daha sonra baş vermişdir:**

A) Şimali Alman İttifaqı üçün konstitusiya hazırlanması

B) İngiltərə qoşunlarının Vaşinqtonu ələ keçirməsi

C) Rusiyanın Krım müharibəsində məğlub olması

D) Osmanlı dövlətində “Gülxanə xətti-şərif”nin verilməsi

E) Böyük Moğol dövlətinə rəsmən son qoyulması

**16. 44 günlük Vətən müharibəsi gedişində erməni işğalından azad olunmuş rayon mərkəzləridir:**

1. Qubadlı
2. Ağdam
3. Füzuli
4. Laçın
5. Zəngilan

A) 3, 4, 5

B) 1, 2, 3

C) 2, 3, 4

D) 1, 3, 5

E) 2, 3, 5

**17. Səfəvi hökmdarlarına dair ardıcıllığı tamamlayın:**

**I Səfi - ? - ? - Sultan Hüseyn**

A) II İsmayıl, Məhəmməd Xudabəndə

B) I Abbas, II Abbas

C) II Abbas, Süleyman

D) Süleyman, II Abbas

E) Süleyman, II Təhmasib

**18. Göstərilənlərin aid olduğu şəhəri müəyyən edin:**

a. X əsrin sonundan inkişaf etməyə başlamışdı

b. Əl-Müqəddəsi bu şəhərin Bağdaddan üstün olduğunu yazmışdı




A) 1

B) 2

C) 3

D) 4

E) 5

**19. “*Midiyalılar onlara yaxınlıqda olan xalqlar üzərində, bu xalqlar öz qonşuları üzərində, qonşular isə onlara həmsərhəd olan xalqlar üzərində ağalıq edirdi*”.**
**Heredota istinadən verilmiş bu mənbə nəyi sübut edir:**
A) Azərbaycanın şimal torpaqlarının Midiyaya tabe olmasını
B) Midiya dövlətinin siyasi, iqtisadi əsasının möhkəm olmamasını
C) Azərbaycanın cənub torpaqlarının Əhəmənilərə tabe olmamasını
D) Midiyada hakimiyyət bölgüsünün mövcudluğunu
E) Midiyanın qonşu xalqlarla mədəni əlaqələrinin mövcudluğunu

**20. XIX əsrin əvvəllərində ABŞ-Böyük Britaniya müharibəsinin başlanma səbəblərindəndir:**
A) Tomas Ceffersonun hakimiyyətdən uzaqlaşdırılması
B) ABŞ-də quldarlığın ləğv edilməsi
C) Böyük Britaniyanın İspaniya ilə müharibə aparması
D) ABŞ-nin Texas ərazisini işğal etməsi
E) ABŞ-nin Kanadanı işğal etmək istəyi

**21. Böyük Moğol dövlətində soyurqal:**
A) Sufi şeyxləri və müsəlman ruhanilərinə məxsus idi
B) Hərbi xidmət müqabilində verilir və irsən keçirdi
C) Hind knyazlarının şəxsi torpaqları idi
D) Dövlət torpaq fonduna daxil idi
E) Xidmət müqabilində verilir və şərti xarakter daşıyırdı

**22. 1870-ci il islahatının bütövlükdə Azərbaycan kəndində əsaslı dəyişikliklər yarada bilməməsinin səbəbi:**
A) 5 desyatinlik normanın müəyyən edilməsi
B) Sahibkar kəndlilərin ümumi kəndli kütləsinin 1/5 hissəsini təşkil etməsi
C) Kəndlilərin torpaqdan istifadəsini qanuniləşdirməsi
D) Kəndlilərin hər desyatin pay torpağa görə natural vergi ödəməsi
E) Rusiyada müvəqqəti mükəlləfiyyətliliyə son qoyulması

**23. XII əsrin ortalarına yaxın:**
A) Konstantinopolda universitet açıldı
B) Oksford universiteti yaradıldı
C) “Karolinq minuskulası” yaradıldı
D) İtaliyada universitet açıldı
E) “Karolinq oyanışı” baş verdi

**24. Gəncə xanlığının mövcudluğu dövründə baş vermişdir:**
1. Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi
2. Şamaxı xanlığının Rusiya tərəfindən işğalı
3. Georgiyevsk müqaviləsinin imzalanması
4. General Sisianovun öldürülməsi
5. Qacarlar dövlətinin meydana gəlməsi
A) 1, 3, 5
B) 2, 4, 5
C) 1, 2, 3
D) 2, 3, 4
E) 1, 4, 5

**25. Yeddiillik müharibənin Fransa üçün nəticələrinə aiddir:**

A) Burbonlar sülaləsinin hakimiyyətinə son qoyuldu

B) Avropadakı sərhədlərini xeyli genişləndirdi

C) ABŞ-la müttəfiqlik sayəsində İngiltərəni məğlub etdi

D) İkinci imperiyaya son qoyuldu

E) Şimali Amerikadakı və Hindistandakı müstəmləkələrini itirdi